промисловості та ресторанного бізнесу. Виробництво такої продукції є перспективним, однак, перед тим як його започатковувати, необхідно зважити всі за та проти. Зокрема, необхідно врахувати соціально-екологічні норми і стандарти у країні, окреслити ринки збуту, порахувати ефективність проєкту в цілому.

***Література:***


1. Вознюк О. М. Тенденції розвитку галузі виробництва виробів з гуми та пластмаси в Україні. Електронний журнал «Ефективна економіка». URL: http://www.economy.nayka.com.ua/?op=1&z=263 (дата звернення: 03.03.2023).

2. Бізнес План виробництво виробів з пластмас. *Млин Бізнес Ідей*: сайт. URL: http://melnicabiz.com.ua/business-plans/109_business_plan_izdeliy_iz_plastmass.html (дата звернення: 03.03.2023).


## QARABAĞDA DAYANIQLI MƏSKUNLAŞMA VƏ İQTİSADİ DİRÇƏLİŞ


*Atakişiyeva Kifayət Rauf qızı*
*Elmi rəhbər: Hüseynova E.Y., i.e.n., dosenti*
*Mingəçevir Dövlət Universiteti*


44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbə nəticəsində ölkəmizin tarixi ərazi bütövlüyünün bərpası soydaşlarımızın öz doğma torpaqlarına qayıdaraq yaşaması üçün yeni mərhələ yaradıb. Azərbaycan hökuməti torpaqlarımız işğaldan azad olunduqdan dərhal sonra Qarabağ bölgəsində bərpa və yenidənqurma işlərinə başlamışdır. Faktiki olaraq postkonflikt ərazilərin bərpası və yenidən qurulması dövlətin strateji hədəfinə çevrilmişdir. Heç təsadüfi deyil ki, "İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış" Azərbaycan hökumətinin 2021-2030-cu illər üzrə müəyyən etdiyi beş milli prioritedən biri olaraq qəbul edilmişdir. Eyni zamanda bərpa və yenidənqurmanın instutisional əsasları - "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı" hazırlanmış, Azərbaycan Respublikası Prezidenti "İşğaldan azad edilmiş ərazilərdə şəhərsalma fəaliyyəti sahəsində idarəetmə ilə bağlı bəzi məsələlər haqqında" 18.03.2021-ci il tarixli 1304 nömrəli fərman imzalamış;

- Qarabağ Rəqəmsal Geoinformasiya Sistemi yaradılmış;
- Azərbaycan Respublikası Prezidenti "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 10.12.2021-ci il tarixli sərəncam imzalamış;
- Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 10.12.2021-ci il tarixli sərəncamının icrasının təmin edilməsi barədə qərar qəbul etmiş;
- Şərqi Zəngəzur iqtisadi rayonunda, Cəbrayıl rayonu ərazisində "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 04.10.2021-ci il tarixli fərmanı imzalanmışdır.

Qələbədən dərhal sonra ilk olaraq minatəmizləmə işləri aparılmağa başlamışdır. 23 429 ha çirklənmədən təmizlənmə aparılıb;

- Fizuli və Zəngilan hava limanlarının tikintisi başa çatdırılıb, Laçın hava limanında işlər davam etdirilir;

- 3 dəmiryolu tikintisi davam etdirilir: Bərdə-Ağdam 47,1 km, Horadiz-Ağbənd 111 km, Füzuli-Şuşa 83,4 km

-16 layihə üzrə avtomobil yollarının tikintisi davam etdirilir,

-Azercell telekom, Azerfon-Bakcell MMC tərəfindən 98 baza stansiyası fəaliyyət göstərir;

-Qarabağ və Şərqi Zəngəzurda 9 rəqəmsal yarımstansiya, o cümlədən Ağdam və Cəbrayıl rayonlarında “Ağdam-1”, “Ağdam-2” və “Cəbrayıl” yarımstansiyalarının, həmçinin “Qarabağ” Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi başa çatdırılıb;

-Zəngilan rayonunda “Ağalı Ağıllı kənd” layihəsi başa çatdırılıb;

-Kütləvi istifadə resursları ilə təminat infrastrukturun bərpası ilə bağlı mühüm işlər görülür (Azərenerji, Azərişıq, Azəriqaz və s.).

Postkonflikt ərazilərdə əhalinin effektiv məskunlaşdırılmasına gəldikdə, bir tərəfdən həmin ərazilərin bərpa və yenidən qurulmasından, digər tərəfdən isə bərpa və yenidənqurma ilə bağlı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən çox mürəkkəb, çoxşaxəli, böyük əmək, vəsait və zaman tələb edən işlərdən, işğaldan azad olunmuş ərazilərə potensial (617 min əhali, 159 min ailə) qayıdacaq əhalinin sayı və qayıdış şərtlərindən asılıdır.

Məskunlaşması gözlənilən toplam bir milyon, o cümlədən 617 min məcburi köçkün (159 min ailə) və bunlardan kənd təsərrüfatında 34,9 faiz, sənayedə 3,5 faiz, tikintidə 8,0 faiz, ticarət və ictimai iaşədə 12,4 faiz, nəqliyyat və rabitədə 5,9 faiz, təhsil, səhiyyə və mədəniyyətdə 13,3 faiz, başqa sahələrdə çalışmaq istəyən 22 faiz əhali var.

Əhalinin effektiv məskunlaşmasını təmin etmək üçün bir sıra infrastruktur layihələri həyata keçirilməkdədir. Hər biri 960 yerlik olan 3 məktəbin – Ağdamda 1 nömrəli, Cəbrayılda və Şuşada iki orta təhsil ocağının inşası getməkdədir. Şuşa şəhərində xəstəxana istismara veriləcək. Ağdamda 210, Füzulidə isə 180 çarpayılıq xəstəxanaların inşasına start verilib. Cəbrayılda isə yaxın gələcəkdə xəstəxananın təməli qoyulacaq. Beləliklə, dövlət keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün kompleks tədbirlər görür. Yaşayış binaları, infrastruktur, iş yerləri, kənd təsərrüfatı ilə məşğul olma imkanları, sənaye parkları planlı şəkildə reallaşır.

İşğaldan azad olunmuş ərazilərə ilk məskunlaşma Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası çərçivəsində icra edilən və artıq yekunlaşdırılan "Ağalı ağıllı kəndi"ndə baş tutmuşdur. Zəngilan torpaqlarının daha çox minalardan təmizlənməsi bu rayonda "ağıllı kənd"in tikintisi və "Dost aqropark"ın salınması ilə bağlıdır. Ağıllı kənddə əhali üçün ən müasir standartlara uyğun yaradılmış şərait sanki nağıllardakı arzuolunan rəvayətləri xatırladır.

İşğaldan azad edilmiş ərazilərdə yaşayış və məşğulluq üçün yaradılmış münbit şərait məcburi köçkünlərin öz doğma yurduna qayıdışını sürətləndirməklə yanaşı, biznes subyektlərinin də Qarabağ ərazisində iqtisadi fəaliyyət göstərməsinə böyük maraq doğurmuşdur.

İndiyə qədər işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyən sahibkarlardan KOBİA-ya 1600-dən artıq müraciət daxil olub ki, onun da 460-ı xarici, qalanı isə yerli müraciətlərdir. KOBİA Azərbaycan dövlətinin Qarabağa dair inkişaf konsepsiyasına uyğun olaraq işğaldan azad edilmiş ərazilərə investisiya qoyuluşu və biznes layihələrinin reallaşdırılması ilə bağlı məsələləri qarşıdakı dövrdə strateji fəaliyyət gündəliyinin prioritet istiqamətlərindən birinə çevirmişdir. Bu məqsədilə hazırda KOBIA tərəfindən 3 istiqamətdə işlər aparılır: Qarabağın investisiya potensialının geniş auditoriya kütləsinə tanıdılması, azad olunmuş ərazilərdə bizneslərin yaradılması ilə bağlı müraciətlərin qəbulu və ilkin biznes infrastrukturunun qurulmasına dəstək.

Xarici müraciətlərin yarıdan çoxu Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin payına düşür. Onların sırasında Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Macarıstan yer alır. Daxil olmuş layihələr əsasən ticarət, xidmət, inşaat, sənaye, kənd təsərrüfatı, mədəniyyət, təhsil, nəqliyyat, logistika və digər sahələri əhatə edir.

Aparılan sorğunun nəticələri də göstərir ki, Qarabağda sahibkarların 46,6%-i gələcək fəaliyyət sahəsi kimi kənd təsərrüfatına üstünlük verir. Sənaye (8,8%), inşaat (7,6%), ticarət (6,7) və təhsil (5,9) sahələri də sahibkarların maraq dairəsindədir.

KOBİA-nın təşkilatçılığı ilə bir qrup sahibkarlarla Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl, Ağdam, Kəlbəcər və Laçın rayonlarına səfərlər təşkil edilmiş, nəticə olaraq bir sıra ərazilərdə biznes və ictimai xidmət obyektləri istifadəyə verilmişdir. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində yaradılmış suvenir istehsalı müəssisəsi isə Türk qardaşlarımız ilə birgə işbirliyinin uğurlu nəticəsidir.

Qarabağ torpağında çalışmaq istəyən yerli əhalinin statistikasına nəzər salsaq, aşağıdakı reallığı müşahidə etmiş olarıq:

- kənd təsərrüfatında 34,9 %
- sənayedə 3,5 %,
- tikintidə 8,0% ,
- ticarət və ictimai iaşədə 12,4 %,
- nəqliyyat və rabitədə 5,9%,
- təhsil, səhiyyə və mədəniyyətdə 13,3%,
- başqa sahələrdə 22%

İşğaldan azad edilmiş ərazilərdə biznesin qurulmasına maraq göstərənlər qadın sahibkarlarımız da var. Biznes qurmaq istəyən qadın sahibkarların təqdim etdikləri layihələrin əksəriyyəti ticarət və xidmət, sənaye, kənd təsərrüfatı, turizm, tikinti işləri, təhsil, səhiyyə sahələri və s. üzrə olub.

Regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcəkdir.

Əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır.

Müzəffər Ali Baş komandan, Xilaskar lider İlham Əliyev cənablarının yeritdiyi məqsədyönlü quruculuq siyasətinə uyğun olaraq işğaldan azad olunmuş ərazilərimizə

"BÖYÜK QAYIDIŞ" davam edir. Biz mütləq Qarabağa qayıdacağıq.
Qarabağ bizimdir.
Qarabağ Azərbaycandır.

## QARABAĞDA SAHİBKARLIQ FƏALİYYƏTİ

*Mustafayev Kənan Sərvər oğlu*
*Elmi Rəhbər: Səfərova Təranə Allahverdi qızı, Baş müəllim*
*Mingəçevir Dövlət Universiteti*

Prezident İlham Əliyev Qarabağ iqtisadi rayonuna - Ağcabədi ilə Ağdama səfəri zamanı sahibkarlara çağırış etmişdi ki, azad edilmiş ərazilərə sərmayə qoysunlar. "Çünki bu gün Azərbaycanda biznes üçün, sahibkarlar üçün çox gözəl şərait yaradılıb. Dövlət sahibkarları dəstəkləyir və həm mənəvi-siyasi dəstək verilir, eyni zamanda, güzəştli kreditlər verilir. Əlbəttə ki, bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də gözəl imkanlar yaradır. Ona görə Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar. Biz azad edilmiş torpaqları ancaq bu yolla tezliklə canlandıra bilərik"- dövlət başçımız bildirmişdi. Bu növbəti çağırış və növbəti dəfə yerli sahibkarlara - investorlara müraciət və dəvət idi. İqtisadiyyatımızın böyük bir hissəsi məhz özəl sektora məxsus olduğundan çoxlu sayda özəl şirkətlərimiz, holdinqlərimiz və sahibkarlarımız var. Çox böyük yerli investisiya imkanlarına malikik. Bütün bunlar faktdır. 44 günlük müharibə bitən gündən hökumət işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinə başlayıb. Və bu işlərin məğzini nəqliyyat və komunikasiya əlaqələri və vasitələrinin bərpası, bunların ən müasir tələblər əsasında qurulması və təmin edilməsi, o cümlədən, yaşayış yerlərinin salınması və sair təşkil edir. Ona görə ki, sözügedən bölgənin potensialından istifadə etmək mümkün olsun, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının malik olduğu bütün imkanlar ölkənin ümumi iqtisadi potensialı çərçivəsinə daxil edilsin. Ümumən, ölkə iqtisadiyyatı bundan töhvə əldə etsin.

Odur ki, bölgənin inkişafında yerli investorların iştirakı vacibdir. Sahibkarlar və iş adamları burada biznes qurmalı, dövlətin onlar üçün yaratdığı imkanlardan istifadə etməli, bölgənin inkişafına töhfələrini verməlidirlər. Bəs, qeyd olunan subyektlər və dairələr bunda maraqlıdırlarmı?! Onlar nəyə görə gözləmə mövqeyində dayanıblar və kütləvi şəkildə real hərəkətə keçməməyin səbəbi nədir?!

Ağcabədiyə səfəri zamanı dövlət başçımız "Ağcabədi taxıl Aqropark"da yaradılan şəraitlə tanış olmuşdu. Adı çəkilən park müasir əkinçilik və bağçılıq təsərrüfatına aid layihədir. Ümumi sahəsi 3 min hektardır və ərazinin 850 hektarı dövlət ehtiyat fonduna daxildir. Aqroparkın faktiki əkin sahəsi 1368 hektardır. Burada əsasən arpa, buğda, qarğıdalı, pambıq, günəbaxan və sair bitkilər becərilir. Ötən il aqroparkda 3094 hektar sahədən 2240 ton buğda, 1932 ton arpa, 7685 ton dən üçün qarğıdalı, 416 ton birillik ot, 87 ton pambıq, 14 ton soya, 1705 ton qarışıq senaj və 6642 ton digər məhsullar olmaqla 20 721 ton məhsul götürülüb. Ümumi dəyəri 35 milyon manat olan "Ağcabədi taxıl Aqropark"ın yaradılmasına 9,8 milyon manat məbləğində güzəştli kredit verilib ki, nəticədə 41-i daimi olmaqla 150 iş yeri yaranıb.